

# İlham Əliyev elə bir Ağdam qurur ki...

## Qarabağın ən böyük şəhərinin əvvəlki şöhrəti özünə qaytarılır

Şanlı Zəfərimizdən sonra İlham Əliyevin diplomatik qətiyyəti sayəsində bir güllə atılmadan düşməndən alınan Ağdamı əcnəbi jurnalistlər "Qafqazın Xirosiması" adlandırmışdılar.

Müzəffər Sərkərdə kimi İlham Əliyev Ağdam azad olunduqdan 3 gün sonra 2020-ci il noyabrın 23-də rayona ilk səfəri zamanı onun ürəkdağlayan mənzərəsini bütün bəşəriyyətə təqdim etdi və dünya erməni barbarlığının faşist xislətli simasının bir daha şahidi oldu. Daşı daş üstündə qalmayan Ağdamı bu vəziyyətdə görənlər heyrətə gəlirdilər.

2021-ci il mayın 28-də - Müstəqillik Günündə Ağdama ikinci səfərində rayon ictimaiyyəti ilə görüşdə İlham Əliyev dedi ki, əgər ermənilər ən gözəl şəhərimizi 30 ilə viranəyə çevirmişdilərsə, Azərbaycan cəmi bir neçə ilə burada cənnətməkan yaradacaq: "Elə bir Ağdam quracağıq ki, bu, bütün dünya ölkələrinə örnək olsun".

### Ağdama 6-cı səfər - yeni açılışlar və təməlqoymalar...

Sözü imzası qədər keçərli, dediyini qısa zamanda həyata keçirən Azərbaycan Prezidenti Ağdamda xarüqələr yaradır. Cəmi 3 ildə Ağdamda görülən işlərə nəzər yetirəndə insanın ürəyi dağa dönür.

Dekabrın 24-də İlham Əliyev zəfərimizdən sonra Ağdama 6-cı səfərini (23 noyabr 2020-ci il, 28 may 2021-ci il, 13 fevral 2022-ci il, 4-5 oktyabr 2022-ci il, 2 may 2023-cü il, 24 dekabr 2023-cü il) gerçəkləşdirdi. Hər səfərində Ağdamda müxtəlif sosial-iqtisadi, ictimai-iaşə obyektlərinin təməlini qoyan, açılışını edən dövət başçısı bu dəfə də Ağdamın quruculuğu istiqamətində həyata keçirilən yeni layihələrin təməlqoyma mərasiminə qatıldı, yeni obyektlərin açılışını etdi.

İlham Əliyevlə birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri yenə də zənginliyi ilə yadda qaldı. Dövlət başçısı "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının, uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolunun açılışlarını etdi və Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasiminə qatıldı. Həmçinin Prezident Ağdam şəhərində dördüncü, beşinci yaşayış komplekslərinin, Qiyaslı, Salahlı, Kəngərli və Baş Qərvənd kəndlərinin təməllərini qoydu, "İmarət" Kompleksində aparılan təmir-bərpa, Ağdam şəhərinin daxili yollarının tikinti işləri ilə tanış oldu.

Ümumiyyətlə, Vətən müharibəsindən sonra İlham Əliyevin tapşırıqlarına əsasən, işğaldan azad olunmuş ərazilərdə dərhal başladılan yenidənqurma və bərpa işləri sürətlə davam edir. Azərbaycan öz hesabına üç ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm quruculuq işləri həyata keçirir. Elə görülən işlərin nəticəsidir ki, Böyük qayıdışın icrası da sürətlə reallaşır.

İşğaldan azad olunan ərazilərimizin baş planlarına uyğun olaraq müxtəlif infrastrukturların icra prosesi da həyata keçirilməkdədir. Ağdamın Baş planı 2021-ci ilin 28 may tarixində təsdiq olunub və ictimaiyyətə təqdim edilib. Baş plan 2040-cı ilədək Ağdam şəhərinin əsas planıdır. Bu plana əsasən, şəhərin coğrafi əhatəsi 3 dəfəyə yaxın artırılaraq 1750 hektar nəzərdə tutulub. Ağdam Azərbaycanda əhalisinin sayına görə 4-cü böyük şəhər olacaq. Bu şəhərdə 100 min əhali yaşayacaq. Ərazidə çoxlu müxtəlif sosial, mədəni, fiziki, iqtisadi infrastruktur obyektləri inşa olunacaq.

Baş planın hazırlanmasında yerli memarlarla yanaşı, xarici ölkələrin tanınmış layihələndirmə institutları da iştirak ediblər. Ağdam şəhərində çoxlu müasir tipli binalar olacaq. Şəhər "ağıllı şəhər" konsepsiyasına uyğun inşa edilir. Şəhərin 20 faizi yaşıllıqla əhatə olunacaq. 4 meşə massivi, 23 şəhərtipli park və şəhərin içində yollar kifayət qədər geniş zolaqlı olacaq. Dünyada ən geniş şəhər küçələrindən biri Lissabon şəhərinin küçələridir, eni 60 metrdir. Ağdam şəhərində iki belə böyük küçə nəzərdə tutulur ki, onun da birinin eni 60 metr, digərinki isə 55 metrdir. Bu o deməkdir ki, küçələr boyu həm yaşıllıq olacaq, həm də avtobus, piyada və velosiped yolları yaradılacaq. Avtomobillərin park edilməsi üçün yerlər çoxluq təşkil edəcək. Yəni elə planlaşdırılıb ki, insanların fərdi maşınları olsa belə ondan istifadə etməyə o qədər də ehtiyac qalmayacaq.

### Ağdam şəhəri həm də "smart şəhər" statusuna sahiblənəcək

Mənfur ermənilərin daşı daş üstündə qoymadığı və görənləri dəhşətə gətirən, "Qafqazın Xirosiması" adlandırılan Ağdam gündən-günə dirçəlir. Rayonun bərpası ilə bağlı kompleks tədbirlər görülür, Böyük qayıdışa möhtəşəm hazırlıq işləri aparılır.

Müstəqillik Günündə rayonun bərpasının başlanğıcını qoyan İlham Əliyev ən müasir Ağdamın qurulacağının və buranın tezliklə modern şəhərə çevriləcəyinin müjdəsini vermişdi. Dekabrın 24-də isə İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri göstərdi ki, tezliklə bura "smart şəhər" statusuna sahiblənəcək.

Ağdama qaz xəttinin çəkilişi layihəsi işlənilir. İçməli suyun gətirilməsi və digər əhəmiyyətli işlər də tezliklə reallaşdırılacaq. Mühüm məsələlərdən biri də Ağdamın yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulmasıdır. Bu baxımdan Bərdə-Ağdam avtomobil yolunun istifadəyə verilməsi əhəmiyyətli imkanlar yaradacaq. Prezidentin göstərişi ilə icrası davam edən Ağdam-Füzuli avtomobil yolu həm Füzuli və Ağdam şəhərlərini, həm də Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək. Bununla Ağdama başqa ölkələrdən gəlmək də asanlaşacaq.

İşğaldan azad olunan bütün ərazilərimizdə tarixi, mədəni, dini irsimizin bərpası yönündə Heydər Əliyev Fondu misilsiz işlər görür. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında fond Ağdamda da bu istiqamətdə mühüm layihələr həyata keçirir.

Prezidentin və Heydər Əliyev Fondunun həyata keçirdiyi işlərlə Ağdamın işğaldan əvvəlki şöhrətinin, ruhunun özünə qaytarılacağına heç bir şübhə yoxdur. Sadalanan işlər onu göstərir ki, Azərbaycan dövləti tarixi Zəfərdən dərhal sonra daha bir tarixi uğuru reallaşdırır və bütün maliyyə, texniki imkanlarını, kadr potensialını səfərbər edərək, işğaldan azad etdiyi torpaqlarını sürətlə dirçəldir, o ərazilərdə əbədi həyatın var olması üçün mühüm işlər görür.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 27 dekabr (№ 284).- S.16.